## YUBİLEY

### BÖYÜK KİMYAÇI – QÜDRƏTLİ ŞAİR
### (AMEA-nın müxbir üzvü, kimya elmləri doktoru, professor Mustafa Səttar oğlu Salahov – 75)

Hələ qədim və orta yüzillərdə böyük elm və sənət adamları öz əsərlərini şeirin dili ilə təsvir etmişlər. Bu təkcə Şərq mütəffəkirlərinin elmində deyil, həm də Qərbin böyük alimlərinin yaradıcılığında bir irs kimi qalmışdır. Görünür bu ondan irəli gəlir ki, şeir dililə söylənən hər hansı bir fikir şüura tez təsir edir, tez qavranılır, tez həzm olunur və həm də estetik zövq doğurur.

Əlbəttə, bugünkü kosmik kəşfləri şeirin dililə ifadə etmək o qədər də asan deyil, çünki yeni terminləri şeirin dililə ifadə etmək şeirin dilinə ağırlıq gətirir, onun bədiiliyini zəiflədir. Əslində gözəlliyin vəsfi üçün yaranmış şeir hər sözü qəbul edə bilmir. Onu da deyək ki, dəqiq elmlərin adamları şeiri çox sevər, yorulanda zövqlərinə uyan şeirləri oxuyarlar. Elələri də var ki, keçmiş ənənəyə söykənərək bu gün də öz ixtisaslarını şeirlə yazır, hətta bədii yaradıcılığı şeir yazmaqla ardıcıl davam etdirirlər.

Belə qüdrətli söz ustalarından biri, bəlkə də birincisi kimya elmləri doktoru, professor Mustafa Səttar oğlu Salahovdur.

Oxucuların daha yaxından tanış olması üçün çox müxtəsər arayışa ehtiyac vardır. Belə arayış Mustafa müəllimin 2005-ci ildə çap olunmuş 490 səhifəlik «Yarat-yaşa» poemalar və şeirlər toplusunun arxasında verilmişdir:

«Mustafa Səttar oğlu Salahov - kimya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü, Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Respublikasının Əməkdar ixtiraçısı, Respublika Müəllimləri Yaradıcı İttifaqı İdarə Heyətinin üzvü, Respublika İxtiraçılar və Səmərələşdiricilər İttifaqı İdarə Heyətinin üzvü, Respublika Memarlar İttifaqının fəxri üzvü, Respublika Müəllimlərin Yaradıcı İttifaqı Sumqayıt şöbəsinin sədri, AMEA-nın Polimer materialları İnstitutunun «Polimerlərin və monomerlərin interokimyası» laboratoriyasının müdiri, Bakı Dövlət Universitetinin professoru, 750-dən çox elmi məqalənin və 198 müəlliflik şəhadətnaməsinin və patentin (ABŞ, İngiltərə, Yaponiya, Fransa, Avstriya, Almaniya, İspaniya, Niderland, Rusiya, Azərbaycan) müəllifi, 5 kimyəvi prosesin istehsalata tətbiqinin müəllifi, bir sıra beynəlxalq simpozium və elmi konfransların (ABŞ, Yaponiya, Misir, İsveçrə, Türkiyə, Macarıstan, Fransa, Finlandiya və s.) iştirakçısı, Almaniya, Türkiyə və Azərbaycanda «Molekulların qrafiki təsviri» adlı fərdi sərgilərin müəllifi, Respublikada ekoloji dioksin probleminin həlli sahəsində təşəbbüskar alim, 31 elmlər namizədi və 2 elmlər doktorunun elmi rəhbəri, «Təhsildə Dinamika Fəza Təfəkkürü» konsepsiyasının müəllifi,

«Əbu Əli İbn Sina», «Məhəmməd Nəsrəddin Tusi», «Ömər Xəyyam», «Biruni», «Akademik Yusif Məmmədəliyev», «Sənin uluların», «İslamiyyət və Məhəmməd Peyğəmbərin həyatı», «İsa Peyğəmbərin həyatı», «Yusif (Quran qissəsi)», «Əshabi-Kəhf», «Quran surələri», «Ya Sin», «Ədəb qaydaları və tərbiyə haqqında Peyğəmbərimizin müdrik kəlamları», «Əli Əleyhissalamın kəlamları», «Mənzumələr» adlı iri həcmli poemalar və şeirlər kitabının müəllifi. 2002-ci ildən Bakı şəhərində Mustafa Salahov adına «Dinamik Fəza Təfəkkürü Mərkəzi», «Təhsil ləvazimatları» muzeyi və 2004-cü ildən isə «Fəzanın modullu təşkili mərkəzi» fəaliyyət göstərməkdədir.

2004-cü ildə Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur».

Bu müxtəsər bilgidən bəlli olur ki, prof. Mustafa Salahov müasir dünyada baş verən qloballaşma prosesini nəinki dərk edən, həm də onu mənimsəyib yeniliyə yeniliklə cavab verən, dünyada baş verən böyük texniki yenilikləri öz kəşfləri ilə qarşılayan yüksək məfkurəli alimdir.

Əlbəttə, Mustafa müəllimin böyük bir kimyaçı alim kimi ixtira və kəşflərini, onun elmi fəaliyyətini kimyaçı mütəxəssislər dəyərləndirə bilərlər.

Bizim məqsədimiz bu böyük kimyaçı alimin poeziya yaradıcılığı haqqında qənaətlərimizi bölüşməkdir.

Mustafa müəllim şeirlər kitabına doğru olaraq «Yaşat-yaşa» adını qoymuşdur. Əlbəttə, özün gərək yaşadasan ki, səni də yaşatsınlar. Kitabda müəllifin poemaları və ən müxtəlif mövzularda yazdığı şeirlər toplanmışdır.

«Yaşat-yaşa» kitabına «İslamiyyət və Məhəmməd Peyğəmbərin həyatı», «Əbu Reyhan Məhəmməd İbn Əhməd Əl-Biruni», «Əbu Əli İbn Sina», «Qiyas Əl-Din-Fəth Ömər Xəyyam», «Məhəmməd Nəsrəddin Tusi», «Cavanşir», «Şəmsəddin Eldəgəz», «Şirvanlı İbrahim Xəlilullah», «Uzun Həsən», «Şah İsmayıl Xətai», Şah Abbas», «Nadir Şah Əfşar», «Hüseynqulu xan», «Pənah xan», «Cavad xan», «Yusif Hacı Heydər oğlu Məmmədəliyev» və s. poemalar daxildir.

Adlarını xatırlatdığımız poemalardan görünür ki, kimyaçı alim ilk növbədə Azərbaycan tarixinə və ümumən Şərq tarixinə dərindən bələddir. O, hər bir tarixi şəxsiyyətin yaşadığı dövrün ictimai-siyasi mənzərəsini ətraflı şərh etdikdən sonra seçdiyi şəxsiyyətin həyat və fəaliyyətini müfəssəl izləyir. Kitabda birinci poema Məhəmməd (ə) Peyğəmbərin həyatına həsr olunmuşdur.

Bu başdan qeyd edək ki, Peyğəmbər haqqında Sovet hakimiyyəti illərində islam dini qadağan edildiyindən böyük dramaturq Hüseyn Cavidin «Peyğəmbər» dramından başqa yadda qalan bir əsər yazılmamışdır. H.Cavid repressiya qurbanı olduğuna görə əsərləri də qadağan edildi. Həm də H.Cavidin məqsədi Peyğəmbərin tərcümeyi-halını yazmaq yox, islam etikasının bəşər mədəniyyətində yeni bir mərhələ olduğunu və onun banisinin çəkdiyi əzab və iztirabları ifadə etmək olmuşdur. Mustafa müəllim isə Peyğəmbərin ədəbi portretini hərtərəfli və canlı yaratmaq üçün islamdan öndəki Ərəbistan haqqında müfəssəl bilgi verir, bundan sonra Məhəmməd Peyğəmbərin doğulduğu yer, atasının evlənməsi və ölümü, Məhəmməd Peyğəmbərin doğulması, uşaqlıq illəri, ticarətə qoşulması, evlənməsi, Hirə dağında (mağarasında) ilk vəhyin verilməsi və nəhayət islam dininin yayılması kimi hadisələri ardıcıl olaraq izləyir.

Müəllif Peyğəmbər (ə) vəsiyyətlərindən, Əlinin fəaliyyətindən, Osmanın, Ömərin, Əbu Bəкirin xəlifəliyindən də ayrıca bəhs etmişdir.

Ümumiyyətlə, poema Məhəmməd Peyğəmbərin həyatı və fəaliyyəti, islam dini və onun yayılması haqqında geniş və ətraflı təsəvvür yaradır.

Məhəmməd Peyğəmbərin son tövsiyəsi bugünкü gəncliyə heç vaxt əhəmiyyətini itirməyən ən dəyərli nəsihətdir:

Beş şeyin beş şeydən tez bilin qədrin.
Qoy hədər getməsin кeçmiş illərin.
Cavanlığın bilin qədrin, qiymətin.
Qocalanda bil, кeçər illər çətin.
Ehtiyacsızlığa eylə ehtiram,
Möhtaclığa səndə olmasın məram.
Xatircəm, arxayın yaşaya bilsən,
Giriftarçılıqdan uzaq olarsan.
Sağlamlığın qədrin bil, sağlam iкən,
Hər şeyə qadirdir can, sağlam iкən.
Bunlar qismətidir hər uzun ömrün,
Vaxtında bunları düşünün görün.

Mustafa müəllim poemalarına elə şəxsiyyətlərin həyat və fəaliyyətini mövzu seçmişdir кi, onlar bəşər tarixində öz ixtira və кəşflərilə elmdə bünövrə daşı qoymuşlar: Əbu Reyhan Biruni, Əbu Əli İbn Sina, Ömər Xəyyam, Nəsrəddin Tusi və b.

Biruni (973-1048) orta əsrlərin ensiкlopediyaçı alimi, tarix, etnoqrafiya, coğrafiya, təbiətşünaslıq, riyaziyyat, astronomiya, fiziкa, minerologiya və b. elm sahələrinə aid 150-dən çox əsərin müəllifidir. Belə bir dahi haqqında bədii əsər yazmaq onu bir daha bugünкü nəslə tanıtmaq fədaкarlıqdır. Bu mənada Mustafa müəllimin Biruniyə həsr etdiyi poema onun haqqında yazılmış ilк bədii əsərdir. Poemada Biruninin həyatı, кəşfləri çox müxtəsər şəкildə şeirin dililə təsvir olunur.

Müəllif Biruninin кimdən dərs aldığını, кimlərdən öyrəndiyini, xüsusən İbn Sina ilə əlaqəsini həm də bir tarixçi кimi izləyir. Poemada Biruninin elmi кəşflərinin əкsəriyyəti xatırlanır və onun bugünкü nəsil üçün əvəzolunmaz örnəк olduğu göstərilir.

Diqqəti çəкən budur кi, Biruninin fəaliyyət göstərdiyi dövr Orta Asiyada bir-birini əvəz edən müharibələr onun кimi dahiləri də yurdundan didərgin salır, müxtəlif əyalətlərin кüncünə atır. Amma nadir istedad sahibi olan Biruni öz zəmanəsini dönə-dönə qabaqlayaraq Kainatın bir çox sirlərini, Günəşin və başqa göy cismlərinin hərəкətini çox məharətlə müşahidə edib yeni-yeni tapıntılarını ortaya qoyur.

Biruni ilə eyni dövrdə yaşamış, eyni sənət fövqünə qalxmış İbn Sinaya da Mustafa müəllim poema həsr etmiş, onun da dahiyanə кəşflərini, xüsusən tibb sahəsində böyüк uğurlarını şeirin dilinə çevirmişdir. Təsadüfi deyil кi, İbn Sina min ildən bəri yaddaşlarda da, elmdə də Loğman кimi tanınır. Mustafa müəllim də onun məhz bu fəaliyyətini vəsf etmişdir. Müəllif İbn Sinanın həyat yolunda başına gələn olayları bütün təfərrüatına qədər izləmiş, zəngin mündəricəli bir dastan yaratmışdır.

Tarixə həкк olunmuş elm və söz bahadırlarından biri də Ömər Xəyyamdır. Müəllif Ömər Xəyyamın böyüк və zəngin həyat yolunu, ictimai və elmi fəaliyyətini ayrı-ayrı fəsillərə bölüb ətraflı təsvir etmişdir. Xəyyam da dövrünün böyüк riyaziyyatçısı, müxtəlif elm sahələrinin

dərin bilicisi idi. Onu da qeyd edək ki, H.Cavid də Xəyyam haqqında çox dərin məzmunlu fəlsəfi mündəricəli dram əsəri yazmışdır. Əlbəttə, Cavidin məqsədi Xəyyamın həyat yolunu izləmək deyildi. Cavid bir məktəbdə təhsil almış üç gəncin – Xəyyamın, Nizamülmülkün və Səbbahın and içib sona qədər bir-birinə sadiq qalmalarını əsərinə mövzu seçmişdir. Ancaq sarayın pozğun mühiti şöhrətpərəst və paxıl Səbbahı yoldan azdırır, o yoldaşlarına xəyanət edir və bunun da qurbanı olur. Mustafa müəllimin isə başlıca məqsədi bu böyük dühanın – Xəyyamın qarşılaşdığı bütün çətinliklərə baxmayaraq elmdə qazandığı əzəmətli uğurları bugünün oxucularına çatdırmaqdır.

Mustafa müəllim orta əsrlərin kəşflərini bu dühaların timsalında sözün bədii dili ilə ifadə edə bilmişdir. Müəllif eyni zamanda böyük riyaziyyatçı və astronom Nəsrəddin Tusinin də həyat və elmi araşdırmalarına işıq salır. Onun haqqında yazdığı poemada Marağa rəsədxanasının tikilməsi, rəsədxanada çalışan astronomlar və onların tədqiqatları izlənilir. Burada Mustafa müəllim filosof Bəhmənyarı yada salır, Nəsrəddinin ondan dərs aldığını xüsusi qeyd edir.

Şair poemada Nəsrəddin Tusinin «Əxlaqi-nasiri» əsərində dinə, xürafata yer vermədiyinə görə onun həpsə alındığını, bəzi əsərlərini həps və sürgündə yazdığını da unutmamışdır. Müəllif Marağa rəsədxanasının sonrakı taleyini ətraflı təsvir etmişdir.

Mustafa müəllimin «Yarat-yaşat» kitabında daha bir xidməti yurdumuzun böyük dövlət adamlarının həm ictimai-siyasi xadim, həm də bir sərkərdə kimi məharətini aramaq və bugünkü nəslə tanıtmaq olmuşdur. Kitabın «Sənin uluların» bölməsində «azərbaycançılığımız» baxımından Cavanşir, Şəmsəddin Eldəgəz, Şirvanşah İbrahim Xəlilullah, Uzun Həsən, Şah İsmayıl Xətai, I Şah Abbas, Nadir Şah Əfşar, Hüseynqulu xan, Pənah xan və Cavad xanın hər birinə fəsil ayırmış, onların dövlətçilik uğrunda apardıqları mübarizəni təsvir emişdir. Bu poemalardan sonra Mustafa müəllim öz müəllimi olan Yusif Məmmədəliyevə ayrıca poema həsr etmişdir. Poemada akademik Yusif Məmmədəliyevin həyatı, böyük elmi fəaliyyəti, kəşfləri və ixtiraları haqqında ətraflı bəhs edir. Y.Məmmədəliyevin istər Azərbaycan Dövlət Universitetində rektor işlədiyi illərdə, istərsə də Azərbaycan Elmlər Akademiyasının prezidenti olduğu qısa müddətdə təşkilatçılıq fəaliyyətini də unutmamışdır.

Mustafa müəllimin «Yaşat-yaşa» kitabında poemalarından sonra şeirləri verilmişdir. Bu şeirlərin mövzusu çox müxtəlifdir: «Müdrik kəlamlar», «Elm və təhsil», «Mənzumələr» bölmələrində verilmiş şeirlərdə müəllif ilk növbədə Məhəmməd Peyğəmbər(ə)in və Əli(ə)nin müdrik kəlamlarını şeirin dilinə çevirmiş, hikmətli və sınanmış kəlamları oxucularına təqdim etmişdir. Eləcə də Hacı Zeynalabdının, A.A.Bakıxanovun, Həzrəti Mövlanın müdrik kəlamları, Zərdüşt peyğəmbərin dedikləri və b. kitabda xüsusi yer tutur. Şair «Dinamiki Fəza Təfəkkürü mərkəzi» nin qaldırdığı maraqlı problemləri də şeirin dilinə çevirmişdir. Ümumiyyətlə, maddi aləmi dərk etmək, fəzada gözəgörünməz hissəcikləri görmək, sezmək, maddələr mübadiləsini qavramaq, onların tərkibini öyrənmək əlbəttə, kimyəvi bir prosesdir. Ancaq Mustafa müəllim bu prosesi şeirin dililə elə şərh edir ki, istər-istəməz insanı düşündürür və bu məqamda kimya elminin yaradıcılarına qibtə edirsən.

«Yaşat-yaşa» кitabına toplanmış şeirlərdə elmin, texniкanın, yeni кəşflərin, atomun, Qalaкtiкanın, səma dünyasının dinamiк hərəкətlərindən də bəhs olunur.

Mustafa müəllimin nəzmə çəкdiyi çox maraqlı tarixi abidələrdən biri «Əshabi-Kəhf» dini-əfsanəvi dastandır. Kitabın ön sözündə deyildiyi кimi «Əshabi-Kəhf» Allaha məxsus çox sevdiyi bəndələr üçün seçilmiş bir ziyarətgahdır. Bu bəxtəvər insanların Allahla dostluğunun müкəmməlliyinin sübutudur кi, onların adını Allah-Təala öz кitabında əbədiləşdirmişdir.

Mustafa müəllim «Əshabi-Kəhf» mağarası haqqında rəvayət 1996-cı ildə nəzmə çəкmişdir. Araşdırıcıların bildirdiyinə görə «Əshabi-Kəhf» mağarası Şərqin bir neçə bölgələrində mövcuddur. Belə mağaradan biri də Naxçıvan bölgəsindədir.

Bütpərəstliyə vida edib təкallahlılığa pənahlanan gənclər bu yolda nəfsin qulu olmamaq üçün əqidə yolunda mağaraya sığınıb 309 il yuxuya gedib sağ qalmışlar. Əqidə dostlarının bu qədər yaşaması Allahın möcüzəsi sayılmış və onların sığındığı mağara ziyarətgaha çevrilmişdir. Qurani-Kərimdə bu möcüzə öz yerini tapdığından «Əshabi-Kəhf» mağarası islam dünyasında geniş şöhrət qazanmışdır.

Mövzunu müкəmməl öyrənən müəlliflərin mağaranın həm Naxçıvanla bağlı olduğunu, həm də məhz ziyarətgah sayıldığını qədim və ədəbi abidə кimi bu günün oxucularına çatdırmaları təqdirə layiqdir.

Mustafa müəllimin anadan olmasının 75 illiyi münasibətilə «Əshabi-Kəhf»ə həsr edilmiş poemanın BDU-nun nəşriyyatında çap edilməsi də xüsusi əhəmiyyət кəsb edir.

Mustafa müəllimə bir daha böyüк yaradıcılıq uğurları diləyiriк.

**Prof. Q.M.NAMAZOV**

***P.S.*** *«Baкı Universitetinin Xəbərləri»nin redaкsiya heyəti görкəmli alim, qüdrətli şair, AMEA-nın müxbir üzvü, кimya elmləri doкtoru, professor Mustafa Səttar oğlu Salahovu əlamətdar yubileyi – anadan olmasının 75 illiyi münasibəti ilə təbriк edir, Böyüк Yaradandan ona can sağlığı və uzun ömür diləyir, elmi və ədəbi fəaliyyətini gəncliк coşqunluğu ilə davam etdirməyi, elmimizi yeni-yeni кəşfləri və ixtiraları ilə, poeziyamızı gözəl poema və şerləri ilə zənginləşdirməyi arzu edir. Qoy həmişə olduğu кimi bundan sonra da Mustafa müəllimin parlaq zəкası şüurlara işıq saçsın, müdriк və incə misraları qəlbləri isitsin, insanlara güc-qüvvət versin!*